## Bankın buraxdığı səhmlər haqqında məlumat (növü, dövlət qeydiyyat nömrəsi, nominal dəyəri, səhmdarların hüquqları)

| | |
|---|---|
| **Növü** | Adi sənədsiz adlı |
| **Dövlət qeydiyyat nömrəsi** | AZ 1005004424 |
| **Nominal dəyəri** | 2.01 AZN |
| **Səhmdarların hüquqları:** | |
| | Emitentin idarə edilməsində Azərbaycan Respublikasının Mülki Məcəlləsi, digər qanunvericilik və Emitentin nizamnaməsi ilə müəyyən edilmiş qaydada iştirak etmək, onun idarəetmə və icra orqanlarına seçmək və seçilmək; |
| | Qanunvericiliklə müəyyən edilmiş qaydada, Emitentin fəaliyyətinə dair məlumatlar almaq, ildə bir dəfə onun illik hesabatı və maliyyə hesabatları ilə tanış olmaq; |
| | Emitentin səhmdarlarının ümumi yığıncağının çağırılmasını tələb etmək; |
| | Emitentin səhmdarlarının ümumi yığıncağının gündəliyində dəyişikliklərin edilməsini və gündəliyə yeni müzakirə mövzularının əlavə olunmasını tələb etmək; |
| | Emitentin səhmdarlarının ümumi yığıncağında səsvermə hüququ ilə iştirak etmək (Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1.2-ci və 49-1.3-cü maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla) və onun protokolunun surətini tələb etmək; |
| | Emitentin fəaliyyətinin təftiş komissiyası və ya auditor tərəfindən yoxlanılmasını tələb etmək; |
| | Emitentin xalis mənfəətindən dividend almaq; |
| | Emitentin fəaliyyətinə xitam verildikdə, onun kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər, habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra Emitentin yerdə qalan əmlakının müəyyən hissəsini almaq; |
| | İcra orqanının və direktorlar şurasının (müşahidə şurasının) üzvlərinin səhlənkarlığına və səhmdar cəmiyyətə qəsdən vurduğu zərərə görə məsuliyyətə cəlb edilməsini tələb etmək; |
| | Emitentin səhmlərinin satışı prosesində iştirak etmək; |
| | Bağlanmış əqd nəticəsində Emitentə və ya səhmdarlara dəyən zərərin və bununla bağlı məsrəflərin ödənilməsi barədə məhkəməyə və ya digər səlahiyyətli quruma müraciət etmək; |
| | Bağlanacaq əqdlərin (aidiyyəti şəxslərlə əqdlərin və xüsusi əhəmiyyətli əqdlərin) əlavələri ilə tanış olmaq; |
| | Azərbaycan Respublikasının Mülki Məcəlləsində və emitentin nizamnaməsində nəzərdə tutulmuş digər hüquqlara malik olmaq. |